Azərbaycan Respublikası adından

**QƏRARDAD**

Bakı şəhəri İş № 10(102)-16/2019 15.02.2019

**ALİ MƏHKƏMƏ**

**Azərbaycan Respublikası adından**
**Azərbaycan Respublikası Ali Məhkəməsi**
**Mülki Kollegiyasının**
**Q Ə R A R D A D İ**

**İş № 10(102)-16/2019 11 fevral 2019-cu il Bakı şəhəri**

Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyası, hakimlər Vəliyeva Elşanə Rafiq qızı (sədrlik edən və məruzəçi-hakim), Əsgərov Qürbət Ağa oğlu, X8 oğlundan ibarət tərkibdə, Əhmədov Fuad Vahid oğlunun katibliyi ilə,

Rusiya Federasiyası Orlov vilayətinin Uriç rayon məhkəməsinin 25.03.2008-ci il tarixli qiyabi qətnaməsinin Azərbaycan Respublikası ərazisində tanınmasına və icra edilməsinə dair Kassator tərəfindən verilmiş ərizəyə baxaraq,

**MÜƏYYƏN ETDİ:**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Beynəlxalq Əməkdaşlıq İdarəsinin 30.11.2018-ci il tarixli 14/18-11771 nömrəli məktubu ilə Rusiya Federasiyası Orlov vilayətinin Uriç rayon məhkəməsinin 25.03.2008-ci il tarixli qiyabi qətnaməsinin Azərbaycan Respublikasının ərazisində tanınması və icrası barədə Kassator tərəfindən verilmiş ərizə və əlaqədar sənədlər aidiyyəti üzrə baxılması üçün Azərbaycan Respublikasının Ali Məhkəməsinə göndərilmişdir.

Kassator ərizə ilə Azərbaycan Respublikası Ali Məhkəməsinə müraciət edərək, X2 04.08.2006-cı il təvəllüdlü X4 münasibətdə valideynlik hüquqlarından, həmin uşağa dair qanunla nəzərdə tutulmuş müavinətlərin alınması hüququndan məhrum edilməsi və uşağın saxlanılması üçün alimentin tutulması hissəsində Rusiya Federasiyası Orlov vilayətinin Uriç rayon məhkəməsinin 25.03.2008-ci il tarixli qiyabi qətnaməsinin Azərbaycan Respublikasının ərazisində tanınması və icra edilməsini xahiş etmişdir.

Ərizəyə baxılmasının vaxtı və yeri barədə işdə iştirak edən şəxslərə məhkəmə iclasının vaxtı və yeri barədə xəbər verilmişdir. Lakin tərəflər məhkəmə iclasına gəlməmiş və gəlməməsinin səbəbləri barədə məhkəməyə məlumat verməmişdirlər.

Məhkəmə kollegiyası Azərbaycan Respublikası MPM-nin 467.2-ci maddəsinə əsasən məhkəmə iclasına gəlməyən şəxslərin iştirak olmadan ərizəyə baxılmasını mümkün hesab edir.

Məruzəçini dinləyib, ərizədə qoyulan dəlillərini araşdıraraq məhkəmə kollegiyası hesab edir ki, ərizə əsaslı olduğu üçün təmin edilməlidir.

Belə ki, Rusiya Federasiyası Orlov vilayətinin Uriç rayon məhkəməsinin 25.03.2008-ci il tarixli qiyabi qətnaməsi ilə X2 04.08.2006-cı il təvəllüdlü X4 münasibətdə valideynlik hüququndan məhrum edilməsi, X3 Kassator qəyyumluğuna verilməsi, X2 həmin uşağa dair qanunla nəzərdə tutulmuş müavinətlərin alınması hüququndan məhrum edilməsi, X1 04.08.2006-cı il təvəllüdlü X3 yetkinlik yaşına çatanadək saxlanılması üçün hər ay bütün

gəlirlərinin ¼ hissəsində X6 xeyrinə alimentin tutulması və 200 rus rublu dövlət rüsumunun tutulması qət edilmişdir.

Həmçinin ərizəyə əlavə edilmiş arayışlarından görünür ki, Rusiya Federasiyası Orlov vilayətinin Uriç rayon məhkəməsinin 25.03.2008-ci il tarixli qiyabi qətnaməsi 07.04.2008-ci il tarixdə qüvvəyə minib, Rusiya Federasiyası ərazisində icra edilməyib və cavabdeh X5 məhkəmə iclasının yeri və vaxtı barədə lazımi qaydada xəbərdar edilsə də məhkəmə iclaslarında iştirak etməmişdir.

Azərbaycan Respublikası MPM-nin 462-ci maddəsinə əsasən Xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qətnamələri Azərbaycan Respublikasının qanunvericiliyinə, hüquq qaydasına zidd deyildirsə və qarşılıqlı təminatlandırılmışdırsa, Azərbaycan Respublikasında icra edilə və tanına bilər.

Həmin Məcəllənin 463-cü maddəsinə əsasən xarici dövlətlərin məhkəmələrinin və arbitrajlarının qətnamələri dedikdə, mülki işlər və iqtisadi mübahisələr üzrə qətnamələr, cinayət işləri üzrə hökmlərin cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi barədə hissələri, arbitraj məhkəmələrinin qətnamələri, habelə xarici dövlətlərin digər aktları başa düşülür.

Həmin Məcəllənin 464-cü maddəsinə əsasən xarici dövlət məhkəmələri və arbitrajlarının qətnamələrinin məcburi qaydada icra olunması və tanınması barədə ərizələrə Azərbaycan Respublikasının Ali Məhkəməsi baxır.

Həmin Məcəllənin 468.1-ci maddəsinə əsasən xarici dövlətin məhkəmə qətnaməsi və Azərbaycan Respublikası Ali Məhkəməsinin qərardadı əsasında bu qətnamənin məcburi qaydada icra edilməsinin həll olunması haqqında, məhkəmə qətnaməsinin icra edilmə yerinə göndərilməklə, icra vərəqəsi verilir.

Həmin Məcəllənin 468.2-ci maddəsinə əsasən xarici dövlətin məhkəmə qətnaməsinin məcburi qaydada icra edilməsi barədə hərəkətlər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən qətnamənin icrasını həyata keçirən orqanlar tərəfindən edilir.

Məhkəmə kollegiyası, vəsatəti və ona əlavə edilmiş sənədləri araşdıraraq hesab edir ki, valideynlik və uşağa dair qanunla nəzərdə tutulmuş müavinətlərin alınması hüququndan məhrum etmə və alimentin tutulması Azərbaycan Respublikası qanunvericiliyinə və hüquq qaydasına zidd olmadığından xarici dövlətin məhkəmə qətnaməsi Azərbaycan Respublikasında tanınmalı və məcburi icraya yönəldilməlidir.

Qeyd edilənlərə əsasən və Azərbaycan Respublikası MPM-nin 462-464, 467-468-ci maddələrini rəhbər tutaraq, məhkəmə kollegiyası

**QƏRARA ALİR:**

Kassator ərizəsi təmin edilsin.

X2 04.08.2006-cı il təvəllüdlü oğlu X4 münasibətdə valideynlik hüququndan, həmin uşağa dair qanunla nəzərdə tutulmuş müavinətlərin alınması hüququndan məhrum edilməsi, X3 yetkinlik yaşına çatanadək saxlanılması üçün hər ay bütün gəlirlərinin ¼ hissəsində X6 xeyrinə alimentin tutulması hissəsində Rusiya Federasiyası Orlov vilayətinin Uriç rayon məhkəməsinin 25.03.2008-ci il tarixli qiyabi qətnaməsi Azərbaycan Respublikasında tanınsın və icra edilsin.

Qərar qəbul edildiyi andan qüvvəyə minir.